# Ey əmim, ləə iləhə illallah de ki, o kəliməylə mən Allah qatında sənin üçün şahidlik edim

Səid bin Əl-Museyyib atasının belə dediyini rəvayət etmişdir: Əbu Talibə ölüm gəldikdə, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onun yanına gəldi və orada Əbu Cəhli və Abdullah bin Əbu Umeyyə bin Əl-Muğiranı gördü və dedi:Ey əmim, ləə iləhə illallah de ki, o kəliməylə mən Allah qatında sənin üçün şahidlik edim." Əbu Cəhl və Abdullah bin Əbu Umeyyə dedi: Sən AbdulMuttalibin dinindən üz döndərirsən? Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona şəhadət kəliməsini ərz etməyə davam edirdi, həmçinin onlar da öz dediklərini təkrarlayırdılar ki, Əbu Talib son söz olaraq Abdul Mutəllibin dini üzərində olduğunu dedi və "ləə iləhə illallah" deməkdən isə imtina etdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Allaha and olsun ki, mənə qadağan edilmədikcə sənin üçün bağışlanma diləyəcəm". Buna görə də Uca Allah bu ayəni nazil etdi: “Müşriklərin Cəhənnəm sakinləri olduqları onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz.” [ət-Tövbə: 113] . Uca Allah Əbu Talib haqqında ayə nazil etdi və Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: {Sən sevdiyini doğru yola yönəldə bilməzsən, lakin Allah istədiyini doğru yola yönəldər} (əl-Qasas, 56).

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əmisi Əbu Talib ölüm ayağında ikən, onun yanına daxil oldu və ona dedi: Ey əmim, “Ləə iləhə illəllah” (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) de ki, mən də qiyamət günü Allah qatında onunla sənin üçün şahidlik edim. Əbu Cəhl və Abdullah bin Əbu Umeyyə dedi: Ey Əbu Talib, atan AbdulMuttalibin dinini tərk edirsən?! Və bu bütlərə ibadət dinidir. Onlar Əbu Talibə bunu deməyə davam edirdilər ki , o, da son olaraq: AbdulMuttalibin dini - şirk və bütlərə ibadət dini- üzərində qalacağını söylədi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun): “Rəbbim mənə bunu qadağan etmədikcə, mən sənin üçün bağışlanma istəyəcəm. Buna görə də Uca Allahın bu kəlamı nazil oldu: "Müşriklərin Cəhənnəm sakinləri olduqları onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz.” [ət-Tövbə: 113] Və Əbu Talib haqqında Uca Allahın bu ayəsi nazil oldu: {Sən sevdiyini doğru yola yönəldə bilməzsən, lakin Allah istədiyini doğru yola yönəldər} (əl-Qasas, 56). Sən hidayətini (doğru yola gəlməsini) istədiyin kəsi doğru yola gətirə bilmərsən, sənin üzərinə düşən yalnız təbliğ etməkdir, Allah isə istədiyini doğru yola yönəldir.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee